

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 oktyabr 2023-cü il №75 (2787) https://mod.gov.az Qiyməti 30 qəpik


## Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər

*Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev tədbirdə iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirilib.

Açılış mərasimində səhnələşdirilmiş musiqili tamaşa, 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresi və Azərbaycan haqqında videoçarxlar nümayiş etdirilib.

Sonra Beynəlxalq Astronavtika Federasiyasının tanıtım videoçarxı təqdim olunub.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti **Kley Mouri** açılış mərasimində çıxış edərək deyib:

- Təşəkkür edirəm. Zati-aliləri Prezident Əliyev, Zati-aliləri Birinci vitse-prezident Əliyeva.

Hörmətli nazirlər, səfirlər, təşkilat rəhbərləri, kosmik ictimaiyyət, mötəbər qonaqlar, sabahınız xeyir.

74-cü Beynəlxalq Astronavtika Konqresinə xoş gəlmisiniz və bu gözəl şəhər Bakıda bizimlə bir arada olduğunuz üçün çox sağ olun.

Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti olaraq bu əlamətdar gündə qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir.

Beynəlxalq Astronavtika Konqresi kosmik ictimaiyyətin nümayəndələri olaraq hamımız üçün unikal bir hadisədir. Bir çoxlarımız işini paylaşmaq, həmkarlarımızı salamlamaq və dünyanın hər yerindən çoxşaxəli və entuziazmla dolu olan cəmiyyətlə yeni əlaqələr yaratmaq üçün yalnız ilin bu vaxtı bir araya gələ bilirik. Prezident Əliyevin möhtəşəm dəstəyi olmasaydı, əlli ildən sonra Bakıya qayıda bilməyəcəkdik. Təşəkkür edirəm, cənab Prezident.

İndi isə bu Konqresə və tədbirə davamlı dəstək olan tərəfdaşlarımızın adlarını çəkmək istəyirəm. Beynəlxalq Astronavtika Akademiyasını, Kosmos Hüquq üzrə Beynəlxalq İnstitutu və Kosmik Nəslin Məşvərət Şurasını, eyni zamanda, "premium" sponsorumuz olan Çinin Astronavtika Cəmiyyətini, "platin" sponsorumuz olan Səudiyyə Ərəbistanının Kosmik Agentliyini, "SpaceX" və Türk Kosmik Agentliyini, "qızıl" sponsorumuz olan "Israel Aerospace Industries" şirkətini, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzini, "gümüş" sponsorlarımız olan "Airbus", "Axiom Space", "Intesputnik", "ispace" kompaniyalarını, Hindistanın Kosmik Tədqiqatlar Təşkilatını, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyini, "Northrop Grumman", "Plan-S" və "Vast" şirkətlərini və "bürünc" sponsorlarımız olan "Asgardia", "BlackSky", "Blue Origin", JGC Holdings Corporation", "Lockheed Martin" korporasiyalarını qeyd etmək istəyirəm. Beynəlxalq Astronavtika Konqresinin bu buraxılışını dəstəkləyən bütün digər sponsorlara da təşəkkürümüzü bildiririk.



Sizin dəyərli dəstəyiniz sayəsində Beynəlxalq Astronavtika Konqresi kimi inanılmaz tədbir hər il keçirilir. Sonda hamınıza buraya gəldiyiniz üçün təşəkkürümü bildirmək istəyirəm, bizim müəlliflərimizi, natiqlərimizi, sərgi iştirakçılarımızı, komitələrimizi nəzərdə tuturam, - onların hamısı könüllü olaraq fəaliyyət göstərir, - hər birinizə gəldiyiniz üçün təşəkkür edirəm. Siz dünyanın ən böyük və ən çoxşaxəli kosmik təşkilatı olan IAF-ın bir hissəsisiniz.

Bayaq nümayiş etdirilən videoçarxda gördüyünüz kimi, federasiya 1951-ci ildə mürəkkəb geosiyasi münasibətlər dövründə təsis olunub. Federasiyanın yaradılmasında məqsəd kosmik sahədə fəaliyyət göstərən bütün insanları birləşdirmək üçün qeyri-siyasi neytral platformanı təmin etmək idi. Bu gün 70 ildən də artıq müddətdən sonra biz yenə də mürəkkəb beynəlxalq proseslərin şahidi oluruq. IAF-ın rolu isə daha da zəruri olaraq sülhsevər əməkdaşlıq ruhunda artmaqda olan kosmik ictimaiyyəti bir araya gətirməkdir. Federasiyanın davamlı inkişaf və innovasiya tarixi var. İlkin olaraq, federasiya Parisdə on təşkilat tərəfindən təsis edilmişdi. Bu gün IAF-ın dünyanın 75 ölkəsindən 468 üzvü var. Sizə hətta bir sirri də aça bilərəm. Bu həftənin sonunadək üzvlərimizin sayı 500-ə çatacaq.

IAF qərar verənlərə fəzanın iqtisadi, sosial, siyasi və elmi dəyərini anlamağa kömək etmək üçün fəaliyyət göstərir. Konqreslər, konfranslar, nəşrlər və araşdırmalarımızla kosmik texnologiyanın gündəlik həyatımızı necə təkmilləşdirə bilməsi ilə əlaqədar biliklərə daha da dərindən yiyələnirik və onları paylaşırıq. IAF tədbirlərinin şəbəkəsi, investisiya qoyuluşu və innovasiyalar vasitəsilə biz dünya miqyasında olan təşkilatları əlaqə yaratmağa, əməkdaşlıq etməyə, elmi və texniki biliyi öz ölkələrində daha da inkişaf etdirməyə sövq edirik. Tədbir və fəaliyyətlərimizdə biz xüsusilə üç mövzuya əsas diqqəti yetiririk. Mənim IAF gündəliyimdə bu məsələlər dayanıqlılıq, investisiya qoyuluşu və təhlükəsizlikdir. Ötən dəfə Parisdə bir araya toplandığımızdan bəri kosmos çox məşğul sahədir desəm, mübaliğəyə yol verмərəm. "James Webb" teleskopundan möhtəşəm təsvirləri görmüşük. Çin öz Orbital Kosmos Stansiyası olan "Tianqonq"un tikintisini tamamlayıb. Hazırda bu kosmik stansiya heyətlə təchiz olunaraq orbitdə tam fəaliyyətdədir. NASA, ESA və onların təchizatçıları bizi Aya aparacaq "Artemis-1" missiyasını müvəffəqiyyətlə başa vurublar. Hindistanın Kosmik Tədqiqatlar Təşkilatı "Çandrayaan-3" peykini ayın səthinə endirib. IASS kommersiya operatorları ilə üzərimizdə beynəlxalq tərəfdaşlıq apararaq uğurla fəaliyyət göstərməyə davam edir. "Space Industries" şirkəti bəşəriyyətin iddialı planları olan Aya qayıtmaq, Marsa və ondan o tərəfə getmək üçün texnologiyanı müvəffəqiyyətlə inkişaf etdirir. Bu, sadəcə, ötən ilin bir neçə əlamətdar hadisəsidir. Kosmos sahəsində çoxlu işlər görülür və bundan sonra bu sahə daha da məşğul olacaq. Bu maraqlı həftə ərzində öyrənəcəyiniz kimi, bu sahə çox sürətlə irəli gedir.

74-cü Beynəlxalq Astronavtika Konqresində iştirak etdiyiniz üçün IAF adından sizə təşəkkürümü bildirirəm. Hərəkətə keçin, işinizi paylaşın, əlaqələr yaradın, həm də əylənin. Ümid edirəm ki, yerli mədəniyyətlə və Xəzər dənizinin gözəl sahilində yerləşən Bakı şəhəri ilə tanış olmaq imkanınız olacaq.

İndi Çinin Kosmik Stansiyası "Tyanqonq"dan bu xüsusi videonu sizinlə paylaşmaq istəyirəm. Buna görə Çinin Milli Kosmik Administrasiyasına, Çinin Astronavtlar Cəmiyyətinə və CMSE təşkilatına dərin təşəkkürümü bildirirəm.

* * *

Sonra Çinin Milli Kosmik Stansiyasının astronavtlarının videomüraciəti olub.

**Çinli astronavtlar:** 74-cü Beynəlxalq Astronavtika Konqresinin iştirakçıları, biz sizi Çinin Kosmik Stansiyasından salamlayırıq. Mən Çin astronavtı Cinq Haipenqəm. Mən Çin astronavtı Ju Yanqjuyam, mən də Çin astronavtı Qui Haiçaoyam. Biz hazırda "Şencou" kosmik gəmisinin 16-cı uçuş missiyasını həyata keçiririk. Ötən iki il ərzində Çinin Kosmik Stansiyası orbitdaxili konstruksiya işlərini tamamlayıb və yeni utilizasiya və inkişaf mərhələsinə qədəm qoyub.

Azərbaycanın paytaxtı Bakı şəhərində Beynəlxalq Astronavtika Konqresinin uğurla təşkil edilməsi münasibətilə heyət adından təbriklərimizi çatdırıram. Ötən 70 il ərzində Beynəlxalq Astronavtika Konqresi dünya miqyaslı mötəbər kosmik mütəxəssisləri davamlı olaraq bir araya gətirib və burada əsas məqsəd qlobal kosmik sənayedə əlaqələri gücləndirmək, bütün bəşəriyyət naminə qətiyyətli irəliləyiş olan birlik, sülh və əməkdaşlığı çatdırmaqdır.

**(Ardı 2-ci səhifədə)**

# Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib

**(Əvvəli 1-ci səhifədə)**




Beynəlxalq Astronavtika Federasiyasının kosmik tədqiqata sadiq və bir olan icma daxilində dostluq üçün körpülərin aşılması kimi irsi var. Bu il sonuncu dəfə yarım əsr bundan əvvəl - 1973-cü ildə keçirildikdən bəri Beynəlxalq Astronavtika Konqresi Bakıya qayıdır. 24-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanın hazırkı Prezidenti İlham Əliyevin atası Heydər Əliyevin rəhbərliyi dövründə Bakıda müvəffəqiyyətlə keçirilib. Bu tarixi şəkildə gənc İlham Əliyev atasını Konqresdə müşayiət edir və onun kosmik tədqiqat sahəsində tanınmış mütəxəssislərlə fotosu çəkilir. Azərbaycan Prezidenti İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin yenidən Bakıda keçirilməsi üçün mühüm dəstək göstərib.

Şəkildə də təsvir olunduğu kimi, insanların kosmik missiyanı irəli aparması ardıcıl nəsillər tərəfindən davamlı dəstək tələb edir. Bəşəriyyətin sülhü sarsılmaz təqib etmək istəyi dəyişməz qalmaqla, yarım əsrin bir anda keçməsi ilə qlobal kosmik sənayedə sürətli transformasiyalar baş verib. Biz səmimi-qəlbdən ümid edirik ki, iştirakçı heyətlər bir həftə boyunca davam edən tədbirdə təcrübə və informasiya mübadiləsi aparacaq, tərəfləri əməkdaşlığa sövq edəcək və qlobal kosmik sənayenin genişlənməsinə şərait yaradacaqlar.






Gəlin, kainatı kəşf etmək və qlobal kosmik sənayenin çiçəklənməsini və tərəqqisini təşviq etmək üçün birlikdə işləyək. Gəlin, kosmosla bağlı bəşəriyyətin gələcəyinə dair ortaq baxışın, eyni zamanda, yerdə də insanlıq üçün gözəl vətənin yaradılması ideyasının irəlilədilməsi naminə səylərimizi birləşdirək. Əziz dostlar, sizə uğurlar arzulayıram, sağ olun.

* * *

**Klay Mouri**: Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə kiçik bir sürprizimiz var. Onun və atasının hələ də kosmosda olan şəkli Çinin "Tianqonq" kosmik stansiyasından nümayiş olundu. Bununla belə, NASA-nın böyük dəstəyi sayəsində Beynəlxalq Kosmik Stansiyaya göndərilmiş və Yerə qaytarılmış ikinci bir şəkil də var. Dörd digər atributla birlikdə olan bu hədiyyəni cənab Prezidentə təqdim edəcəyik. Hazırda gördüyünüz həmin dörd atributun təsviridir. Zati-aliləri cənab İlham Əliyevi səhnəyə dəvət etmək istəyirik.

* * *

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Klay Mouri 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresində Ulu Öndər Heydər Əliyevin və oğlu İlham Əliyevin astronavtlarla çəkdirdiyi, kosmosda nümayiş edildikdən sonra geri gətirilən fotoşəkil və digər atributlardan ibarət xatirə hədiyyəsini Azərbaycan Prezidentinə təqdim edib.

* * *

**Klay Mouri:** Qonaqpərvərliyə görə Zati-alinizə bir daha təşəkkür edirəm. İndi isə NASA tərəfindən göndərilmiş qısa videoçarxı böyük məmnuniyyətlə sizə təqdim etmək istəyirəm.

* * *

**Amerikalı astronavtlar:** Sizi Beynəlxalq Kosmik Stansiyadan salamlayırıq. Mən NASA astronavtı Casmin Moqbeliyəm, bu da həmkarım NASA astronavtı Loral Oharadır və yeddi nəfər ekipaj üzvləridir. Orbitdəki bu möhtəşəm laboratoriyada missiyamızın erkən mərhələsindəyik və biz Yer üzərindən 260 mil məsafədə uçuruq. Kosmik stansiya bəşəriyyətin vacib tədqiqat mərkəzidir, mən və ekipaj üzvlərim bütün bəşəriyyətin faydası üçün dünya səviyyəli tədqiqatla məşğuluq. Beynəlxalq Kosmik Stansiya növbəti iki ay ərzində iki əlamətdar hadisəni qeyd edəcək. Noyabrın 2-də biz insanın fəzada daimi mövcudluğunun 23-cü ildönümünü qeyd edəcəyik. Dekabrın 6-da isə kosmik stansiyanın tərəfdaşları bu gün nəhəng kompleksin ilk iki elementi olan "Zarya" və "Unity" modullarının birləşməsinin 25-ci ildönümünü qeyd edəcəklər. Ekipajımız hər gün Yer kürəsində həyatı yaxşılaşdırmaq üçün birlikdə işləyən Beynəlxalq Kosmik Stansiyanı fərqləndirən xüsusiyyət olan qlobal tərəfdaşlığı təcəssüm etdirir. Bakıda bu tədbirdə iştirak edən hər birinizə məhsuldar Konfrans keçirilməsini arzulayırıq. Bu gecə səmaya baxanda biz sizə əl edəcəyik.

* * *

Dövlətimizin başçısı Konqresin açılış mərasimində çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Beynəlxalq Astronavtika Federasiyasının hörmətli prezidenti.

Hörmətli xanımlar və cənablar.

Əziz qonaqlar.

Azərbaycana, Bakıya xoş gəlmisiniz. Əlli ildən sonra Konqres burada yenidən keçirilir. İlk olaraq, Konqresin Azərbaycanda təşkil edilməsi şərəfinə layiq görüldüyümüz üçün Beynəlxalq Astronavtika Federasiyasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, mütəmadi dəstəyə görə Beynəlxalq Astronavtika Akademiyasına və Kosmos Hüququ üzrə Beynəlxalq İnstitutuna təşəkkür edirəm.

Belə bir mühüm qlobal tədbirə ev sahibliyi etmək bizim üçün şərəfdir. Bu gün burada 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı var. Əminəm ki, qonaqlarımızın Konqresdəki işlərindən əlavə, Azərbaycanı, onun xalqını, tarixini və mədəniyyətini daha yaxından tanımaq imkanı olacaqdır.

Azərbaycan on ildən artıq müddət əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər.

Bakıda keçirilən bu Konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir.

Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub və dostlar qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə yönəlib. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisata - Qoşulmama Hərəkatına sədrlik edirik və belə bir təşkilata sədrlik etmək şərəfinə biz 120 dövlətin yekdil qərarı ilə layiq görülmüşük. Bu, həqiqətən də Azərbaycanın geniş beynəlxalq dəstəyə malik olmasının göstəricisidir.

Bununla yanaşı, bizim Avropa institutları ilə də əməkdaşlığımız uğurla inkişaf edir. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. Bu, bizim xarici siyasət gündəliyimizi nümayiş etdirir. Bu, tam açıq gündəlikdir və artıq qeyd etdiyim kimi, əməkdaşlığa və daha geniş regional iştirak və inklüzivliyə yönəlib.

Azərbaycan iki mühüm beynəlxalq təsisatın - İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvüdür. Biz eyni vaxtda hər iki təşkilata üzv olan azsaylı ölkələrdənik və bu iki təşkilatın yüzdən artıq üzvü var. Bu, yalnız bizim coğrafiyamız və mədəniyyətimizin deyil, həm də siyasi niyyətlərimizin göstəricisidir. Çünki Azərbaycanın Avropa ilə Asiya arasında yerləşməsi və iki qitəni birləşdirən, təbii olaraq mədəni, nəqliyyat və hazırda iqtisadi körpü rolunu oynaması bizə regionumuzda geniş beynəlxalq əməkdaşlıq qurmaq imkanı verir.

Hesab edirəm ki, dünyanın hər bir ölkəsi üçün coğrafi yerləşmə böyük əhəmiyyət kəsb edir. Bizim üçün isə coğrafiya fürsət deməkdir. Əsrlər boyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk. Bu mühüm beynəlxalq tədbirin keçirilməsinin bizə həvalə olunmasını ölkəmizə olan etimadın və fəaliyyətimizə dəstəyin göstərici hesab edirik.

Əlbəttə, qitələrarası körpü olmağımız cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub. Otuz ildən artıq müstəqillik dövründə biz həyat tərzimizin bu faktorunu gücləndirmişik. Biz bunu sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların və bütün dini konfessiyaların dinc birgə yaşayışı üçün əhəmiyyətli faktor hesab edirik. Biz, həqiqətən də, bir ailə kimi yaşayırıq və bir sıra beynəlxalq təşkilatlar bunu qeyd edib və bu, onların qərarlarında öz əksini tapıb. BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir. Yeri gəlmişkən, ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticəyönümlü olması üçün unikal platformadır.

**(Ardı 3-cü səhifədə)**

# Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib





(Əvvəli 2-ci səhifədə)

Azərbaycan on ildən çoxdur ki, Bakı Prosesinin təşəbbüskarıdır. Tarixdə ilk dəfə idi ki, Avropa Şurası və İslam Əməkdaşlığı Təşkilatı vahid platforma çərçivəsində bir araya gətirildi və burada qlobal siyasət, mədəniyyətlərarası dialoq və dinc inkişafa dair vacib məsələlər müzakirə edildi.

Azərbaycan, həmçinin dünyada ilk dəfə - XIX əsrin ortalarında neftin hasil edildiyi ölkə kimi tanınır. O zaman dünyada neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. Bir çoxları bəlkə də bunu bilmir, ancaq XX əsrin ortalarında dünyada ilk dəfə dənizdə neft məhz Azərbaycanda - Xəzər dənizində azərbaycanlı neftçilər tərəfindən hasil edilib.

Bu gün müstəqil ölkə olaraq, bizim təbii sərvətlərimiz xalqımızın mənafeyinə xidmət edir. Müstəqillik illərinin sürətli transformasiyası bizim təbii sərvətlərimizin düzgün istifadəsinin təzahürüdür. Neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi.

Bu gün enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsinə nəzər salsanız, orada Azərbaycanın dəst-xəttini görərsiniz. Bizim təşəbbüskarı olduğumuz, qonşularımız və tərəfdaşlarımızla uğurla həyata keçirdiyimiz layihələr təkcə bizim regionun enerji təhlükəsizliyinə töhfə vermir. Bu gün hər kəsə məlumdur ki, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu gün Azərbaycan beynəlxalq bazarlarda enerji ehtiyatlarının etibarlı təchizatçısıdır və Avropa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilir. Lakin tərəfdaşlarımız arasında müxtəlif qitələrdə yerləşən onlarla ölkə var və bütün səylər beynəlxalq əməkdaşlığa, proqnozlaşdırmaya və eyni zamanda, ölkəmizin uğurlu iqtisadi inkişafına xidmət edir.

Üç il əvvəl biz təxminən 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz təcavüzdən, işğaldan və etnik təmizləmədən əziyyət çəkdik və bu, millətimiz üçün böyük faciə, böyük humanitar fəlakət idi. 1990-cı illərin əvvəlində torpaqlarımız işğal olunanda, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü və o vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt, biz çox yoxsul idik. Biz öz təbii sərvətlərimizin istismarına hələ başlamamışdıq. Açıq dənizə çıxışı olmayan ölkəmizdə hərc-mərclik hökm sürürdü və gələcək üçün perspektivlər o qədər də aydın görünmürdü.

Lakin xalqımız güclü siyasi iradəsini nümayiş etdirdi. Biz uzun illər münaqişənin sülh yolu ilə həllini tapmağa və işğala dinc yolla son qoymağa çalışdıq. 28 il ərzində biz danışıqlar prosesinə qəti surətdə sadiq qaldıq, lakin əfsuslar ki, biz anladıq: bunu sülh yolu ilə etmək mümkünsüzdür. Biz özünümüdafiə hüququmuzdan istifadə etdik. Biz BMT nizamnaməsinin hər bir ölkəyə verdiyi hüquqdan, özünümüdafiə hüququndan istifadə etdik və üç il əvvəl öz ərazilərimizi azad edərək işğala son qoyduq. Bir aydan da az müddət əvvəl biz ölkəmizin suverenliyini tam bərpa etdik.

Əfsuslar olsun ki, işğala son qoymaq öhdəliyini üzərinə götürmüş beynəlxalq təşkilatlar hər hansı nəticəyə nail olmadı. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin həmin qətnamələr 27 il icra olunmadı. Biz həmin qətnamələri insanlarımızın həyatını qurban verərək özümüz icra etdik. ATƏT kimi beynəlxalq təşkilatların da danışıqlarda vasitəçilik etmək mandatı var idi, lakin nəticə sıfır oldu və Azərbaycan cəmiyyətində tam məyusluq və narazılıq yaratdı.

Ərazi bütövlüyünün və suverenliyin bərpasında əldə etdiyimiz təcrübə müəyyən formada unikal oldu. Zorakılıqla üzləşdiyimiz münaqişəyə son qoyduq. Biz ləyaqətimizi qoruduq. Biz ədaləti və beynəlxalq hüququ bərpa etdik. İndi isə Qafqazda sülh üçün vaxt yetişib. Bu, bizim gündəliyimizdir. Gündəliyimiz Qafqazda sülhün, regionda sülhün, əməkdaşlığın qurulmasıdır və hamı üçün faydanın gətirilməsidir.

Bu gün biz göstəririk ki, həqiqətən müstəqil ölkə olmaq üçün güclü iqtisadiyyat lazımdır. Biz aydın şəkildə anlayırıq ki, bütün əsas səylərimiz özünü təmin edən iqtisadiyyatın necə qurulmasına yönəlmişdir. Yəni, biz hər hansı qlobal güc mərkəzindən və ya hər hansı maliyyə təsisatından asılı vəziyyətə düşməyək. Biz buna nail olduq.

Nəzərə alsaq ki, qonaqlarımızın əksər hissəsi Azərbaycana ilk dəfədir səfər edir, mən sizə bəzi rəqəmlərlə bağlı məlumat vermək istərdim. Hesab edirəm ki, həmin rəqəmlər Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətləri aydın şəkildə nümayiş etdirir. Beləliklə, son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır.




Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və bu onu göstərir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunub. Milli sərvətlərin bərabər paylanması bu gün beynəlxalq ekspertlər və ən vacibi isə, Azərbaycan xalqı tərəfindən qeyd olunur. Bir sözlə, bütün bunlar əslində göstərir ki, ölkə çox dayanıqlı vəziyyətdədir. Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır, çünki aydındır ki, əgər vəziyyət sabit və proqnozlaşdırılan olmasa, investorların gələrək öz kapitalını risk altına atmasını gözləmək olmaz.

Ümid edirəm ki, qonaqlarımızın söylədiklərimi öz gözləri ilə görmək, insanlarla tanış olmaq və Azərbaycanı daha yaxşı tanımaq imkanı olacaq. Bəli, bizim qədim tariximiz var və o, videoçarxda göstərildi. Bizim qədim mədəniyyətimiz var. Lakin müstəqil ölkə kimi biz hələ çox gəncik, cəmi 32 yaşımız var.

Yekunda bir daha söyləmək istərdim ki, biz Konqresə ikinci dəfə ev sahibliyi etməkdən olduqca fərəhlənirik, çünki qeyd edildiyi və göstərildiyi kimi, o, artıq bir dəfə 1973-cü ildə təşkil olunmuşdur. 24-cü Konqres Bakıda keçirilmişdir. Mən bütün qonaqlarımıza və xüsusən də, mənə əziz olan fotonu kosmosa çıxaran cəsur Çin astronavtlarına çox minnətdaram. Bu, sanki onu göstərir ki, mən özüm də oradayam. Mən sizin icmanızın bir hissəsiyəm.

Əlbəttə ki, belə bir mühüm tədbirə ikinci dəfə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir və mən həmin qərarın qəbul olunmasında iştirak edən bütün şəxslərə bir daha təşəkkürümü bildirirəm. Beləliklə, Konqres ikinci dəfə Bakıda, eyni şəhərdə keçirilir. Lakin ölkə eyni deyil. Bu gün həmin qlobal tədbirin ev sahibi müstəqil Azərbaycandır. Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm və Konqresə uğurlar arzulayıram.

* * *

Sonra bir sıra nominasiyalar üzrə qaliblərə mükafatlar təqdim olunub.

ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA) elm üzrə sabiq köməkçisi Tomas Zurbuxen Azərbaycanın 50 il əvvəl bu mötəbər tədbirə ev sahibliyi etdiyinə diqqət çəkərək deyib: Mən İsveçrə dağlarında böyümüşəm və kosmosa dair baxdığım ilk televiziya şousu Amerika kapsulu ilə sovet kapsulunun birləşməsi ilə bağlı olub. Bu plan 50 il əvvəl məhz burada - Bakıda işlənib hazırlanıb.

* * *

Tədbirə xüsusi qonaq qismində dəvət olunmuş israilli yazıçı, tarixçi, Qüds İvrit Universitetinin professoru Yuval Noah Harari insanlar tərəfindən yaradılmış süni intellektin hələ inkişafının çox erkən mərhələsində olduğunu vurğulayaraq deyib: On min illər ərzində bizim kimi insanlar Yer planetində dominantlıq ediblər. Əgər biz 50 il geriyə qayıdıb burada - Bakıda keçirilən 24-cü Beynəlxalq Astronavtika Konqresində iştirak edə bilsəydik və ya daha 700 il geriyə qayıdıb Nəsrəddin Tusinin yaxınlıqda tikdirdiyi rəsədxanaya gedə bilsəydik, orada bütün mühüm aspektlərdən bizimlə eyni olan insanlarla rastlaşardıq. Lakin tezliklə bu planetdə insanların dominantlığı erası başa çata bilər.

* * *

Açılış mərasimi konsert proqramı ilə davam edib.

* * *

Qeyd edək ki, 2022-ci il mayın 28-də Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə "Akıncı" pilotsuz uçuş aparatının üzərinə imza atmışdılar.

74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Selçuk Bayraktar həmin pilotsuz uçuş aparatının kiçikölçülü maketini dövlətimizin başçısına hədiyyə edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin açılışında iştirak ediblər



*Oktyabrın 2-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev sərginin açılışında iştirak ediblər.

Sərginin rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra iştirakçı şirkətlərin stendləri ilə tanışlıq olub.

Məlumat verilib ki, 8 min kvadratmetr sahədə yaradılan sərginin pavilyonunda 36 ölkədən 150 şirkətin stendləri iştirakçılara təqdim edilir.

Dövlətimizin başçısı və birinci xanım Türk Kosmik Agentliyinin, Səudiyyə Ərəbistanının Kosmik Agentliyinin, ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA), Hindistanın Kosmik Tədqiqatlar Təşkilatının, "Israel Aerospace Industries" şirkətinin, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyasının, Çinin Astronavtika Cəmiyyətinin və digər şirkətlərin stendlərinə baxıblar.

Qeyd edək ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sahədən olan 22 şirkətin əldə etdiyi sponsorluq paketinin sayına görə rekord həddə çatıb. Belə ki, Bakı Konqresi beynəlxalq sponsorluq paketinin satışı üzrə Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilən konqresləri geridə qoyub. Konqresin ümumilikdə 30-dan çox sponsoru var.

Konqresin "premium", "platinium", "qızıl", "gümüş" və "bürünc" sponsorluq paketlərini əldə edən şirkətlər arasında ABŞ-ın "Space X", "Axiom Space", "Blue Origin", "Boeing", "Lockheed Martin", "BlackSky" "Vast", "Northrop Grumman" şirkətləri, Çinin Astronavtika Cəmiyyəti, Türkiyənin Kosmik Agentliyi, "Plan S" texnologiya şirkəti, Səudiyyə Ərəbistanının Kosmik Agentliyi, "Israel Aerospace Industries" şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzi, Hindistan Kosmik Tədqiqatlar Təşkilatı, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi, "ispace", "JGC Holdings Corporation", "Astroscale" şirkətləri, "Airbus" şirkətinin Almaniyadakı ofisi, Beynəlxalq Kosmik Rabitə Təşkilatı "İntersputnik", Portuqaliyanın "Neuraspace", Bolqarıstanın "EnduraSat", Avstriyanın "Asgardia Space", İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyası, Böyük Britaniyanın Kosmik Agentliyi, Amazonun "Kuiper" layihəsi, "Jet Propulsion Laboratory", "Voyager Space" şirkətləri yer alır.



Bakı Konqresinə ümumilikdə 95 ölkədən 3600-dən çox elmi məqalə təqdim olunub. Bakı Konqresi bu göstərici üzrə də Paris (2022), Vaşinqton (2019) və Bremen (2018) tədbirləri ilə birgə indiyədək keçirilən bütün konqresləri geridə qoyub. Konqresə Azərbaycandan təqdim olunan elmi məqalələrin sayı da rekord həcmdə olub - 214. Ölkəmiz ən çox elmi məqalə təqdim edən ölkələr - ABŞ, İtaliya, Hindistan və Çindən sonra ilk beşlikdə yer alır.



Xatırladaq ki, Beynəlxalq Astronavtika Federasiyası İkinci Dünya müharibəsindən sonra "soyuq müharibə" dövründə kosmos sahəsində elm adamlarının arasında dialoqun yenidən qurulması məqsədilə 1951-ci ildə yaradılıb. Federasiya sülh məqsədləri ilə kosmik tədqiqat və fəaliyyətin təşviq edilməsi, cəmiyyətin bu sahədə maarifləndirməsi və biliklərinin zənginləşdirilməsi məqsədilə üzv qurumlar arasında qlobal şəbəkə yaradır. Hər il Federasiya konfrans, texniki sessiyalar, quruma üzv ölkələrin nazirləri və parlament üzvlərinin beynəlxalq iclası kimi beynəlxalq tədbirlər təşkil edir. Hazırda Federasiyanın 110 ölkədən 460-dan çox üzvü var. Azərbaycan 2003-cü ildən Federasiyanın üzvüdür.

*Tibb xidməti*

# Hərbi qulluqçuların sağlamlığı da diqqət mərkəzindədir

Şəxsi heyətin döyüş qabiliyyətinin, mənəvi-psixoloji hazırlığının yüksək olmasına təsir edən başlıca amillərdən biri də onların sağlamlığıdır. Ordumuzun bütün bölmələrində hərbi qulluqçuların sağlamlığının qorunması üçün müasir tibbi avadanlıqlarla təchiz olunmuş tibb məntəqələri fəaliyyət göstərir. Həmçinin tibb məntəqələrində çalışan peşəkar hərbi həkimlər Vətən müdafiəçilərinin səhhətinin keşiyində inamla dayanırlar. Onlar müayinə və müalicə işini yüksək səviyyədə təşkil edərək zabit, gizir və əsgərlərin səhhətlərini daim diqqətdə saxlayırlar. Bununla yanaşı, xəstəliklərdən qorunmaq üçün mütəmadi olaraq hərbi hissədə maarifləndirici söhbətlər aparır, tibbi profilaktik, dezinfeksiya işləri görürlər.

"N" hərbi hissəsinin tibb məntəqəsində də xidmət yüksək səviyyədə təşkil olunduğunun şahidi oluruq. Otaqlarda təmizlik, səliqə-sahman hökm sürürdü. Növbətçi həkim tibb xidməti leytenantı Elnur Hüseynov tibb məntəqəsində işin təşkilindən danışdı. Məntəqəyə müraciət edən hərbi qulluqçuların ilk olaraq qəbul otağında qeydiyyata alındığını bildirdi: "Həkim xəstənin səhhətində yaranan narahatlığı dəqiq öyrənmək üçün onunla səmimi ünsiyyət qurmalıdır. Onun səmimiyyəti, qayğısı ilkin müalicəsidir. Çünki həkim elə mühit yaratmalıdır ki, xəstə ona inansın, tam səmimi danışsın. Ona görə də məntəqədəki həkimlərin hər biri bura müraciət edənlərə qayğı ilə yanaşır, şikayətlərini diqqətlə dinləyir, sonra müayinə edirlər. Bundan əlavə tez-tez şəxsi heyətlə görüşür, mövsümi xəstəliklərdən, xəstəliktörədici viruslardan qorunmağın yolları haqqında onları təlimatlandırırıq. Bütün bilik və bacarıqlarımızı səfərbər edirik ki, onların sağlamlığında heç bir narahatlıq olmasın ki, döyüş hazırlığı ilə yüksək səviyyədə məşğul ola bilsinlər".



Tibb məntəqəsinə müraciət edən əsgər Bayram Əhmədovun müayinə prosesini də izlədik. Halsızlıqdan və başağrısından şikayətlənən əsgər bölüyün baş çavuşu tərəfindən məntəqəyə gətirilmişdi. Tibb xidməti leytenantı Elnur Hüseynov əvvəlcə qəbul otağında əsgərin məlumatlarını qeydiyyat kitabına yazdı. Sonra onunla fərdi söhbət etdi, şikayətlərini dinlədi. Hərarətini yoxladıqdan sonra qan təzyiqini ölçdü. Prosesləri izlədikcə Elnurun işinə olan sevgisi və peşəsinin incəliklərinə yaxşı bələd olduğu göründü. Qayğıkeşliyi, səmimiyyəti, verdiyi tövsiyələri əmin edirdi ki, burada xidmət edən şəxsi heyətin sağlamlığı əmin əllərdədir. Bu əminliyimi tibb məntəqəsində müalicəsini başa vurub bölməsinə qayıdan əsgər Məhəmməd Qədimov da təsdiqlədi. "Burada müalicə alanların hamısına yüksək qayğı göstərilir, səhhətimiz diqqət mərkəzində saxlanılır. Gün ərzində bir neçə dəfə müayinə aparırlar. Bir sözlə, tez vaxtda sağalmağımız üçün zəruri işlərin hamısı yüksək səviyyədə görülür və ehtiyac olan bütün növ dərmanlardan istifadə olunur. Məntəqədəki həkimlərin hər biri əlindən gələni edir ki, tez sağalıb xidmətimizi davam etdirək. Bütün təminatlarımız kimi sağlamlığımızın da diqqətdə saxlanılması bizə, Azərbaycan əsgərinə yüksək dəyərin göstəricisidir. Hər birimiz qürur duyuruq ki, azərbaycanlıyıq, rəşadətli və qalib ordunun əsgərləriyik. Nümunəvi xidmət edib, dövlətimizin, ordumuzun adına layiqli əsgər olmağa çalışırıq", - Məhəmməd dedi.

**Baş leytenant
Elvin VƏTƏNDUST
"Azərbaycan Ordusu"
foto
C.CƏFƏROVUNDUR**

# Ermənistan ərazisindən açılan snayper atəşi nəticəsində hərbi qulluqçumuz şəhid olub

Sentyabrın 30-u günorta saatlarında Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətindəki mövqeyindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Aşağı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyinə snayper silahından atəş açılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, atəş nəticəsində hərbi qulluqçumuz Orucov Vüsal Xeybalı oğlu şəhid olub.

Bölmələrimiz tərəfindən cavab tədbirləri görülür.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidimizin yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

# “Xəzri-2023” təlimində iştirak edəcək Qazaxıstanın hərbi gəmiləri Bakıya səfər edib





Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, Bakıda hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə "Xəzri-2023" birgə taktiki təlimi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, birgə taktiki təlimdə iştirak etmək üçün oktyabrın 2-də Qazaxıstan HDQ-nin hərbi gəmiləri və şəxsi heyəti Bakıya səfər edib.

Azərbaycan HDQ komandanı vitse-admiral Sübhan Bəkirov Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin HDQ komandanı kontr-admiral Saken Bekjanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Vitse-admiral S.Bəkirov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. HDQ komandanı Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus ərazi sektorunda keçiriləcək birgə taktiki təlimin hər iki ölkənin hərbi qulluqçuları arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılmasına, onların peşəkarlığının və hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəyini bildirib.

Qeyd edək ki, oktyabrın 8-dək davam edəcək Azərbaycan-Qazaxıstan birgə taktiki təlimində müxtəlif tapşırıqlar üzrə fəaliyyətlər icra ediləcək.

# Xidmət müddəti başa çatan bir qrup hərbi qulluqçu tərxis olunub





Azərbaycan Ordusunun hərbi hissələrində müddətli həqiqi hərbi xidmət müddəti başa çatmış bir qrup hərbi qulluqçunun tərxis edilməsi ilə əlaqədar tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Tədbirlərdə çıxış edənlər hərbi xidmətlərini layiqincə başa vuraraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin ehtiyatına buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularını təbrik ediblər, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Xidmət müddəti başa çatan əsgərlər qalib Azərbaycan Ordusunun sıralarında xidmət etməkdən böyük şərəf və qürur duyduqlarını bildirib, hərbi xidmət dövründə qazandıqları müsbət vərdişlərin və keyfiyyətlərin gələcəkdə onların cəmiyyətimizə layiqli vətəndaş olmalarına töhfə verəcəyinə əmin olduqlarını qeyd ediblər.

Tədbirlərdə xidmət müddəti ərzində icra olunan döyüş tapşırıqlarında fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

Sonda tərxis edilən hərbi qulluqçularla xatirə fotoşəkilləri çəkilib, onlar yaşadıqları bölgələrə yola salınıblar.

# Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat - SİYAHI

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə oktyabrın 2-si saat 18:00-a olan məlumat.

**SİLAHLAR**

1. Atıcı silahlar - 2608
2. Qumbaraatanlar - 235
3. Top və haubitsalar - 60
4. Minaatanlar - 64
5. Tank əleyhinə silahlar - 58
6. HHM silahları - 165

**TEXNİKA**

1. Zirehli texnika - 31
2. Avtomobil texnikası - 265
3. Qoşqular - 23
4. Yardımçı texnika - 9

**DÖYÜŞ SURSATLARI**

1. Raketlər - 1700
2. Top və haubitsa mərmiləri - 5177
3. Zenit top mərmiləri - 31771
4. Minaatan mərmiləri - 12806
5. Qumbaralar - 5880
6. Əl qumbaraları - 3068
7. Patronlar - 2009970
8. Digər sursatlar - 5778

**CİHAZLAR**

1. Optik cihazlar - 314
2. Digər cihazlar - 38

**TƏCHİZAT**

1. Fərdi təchizat vasitələri - 1027
2. Müxtəlif silahların qurğuları - 15
3. Digər təchizat vasitələri - 3323

# Qarabağ bölgəsində mühəndis təminatı üzrə tədbirlər görülür

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Qarabağ bölgəsinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə tədbirlər həyata keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən cari ilin sentyabrın 21-dən oktyabrın 2-dək bölgədə 18 ədəd piyada əleyhinə mina, 105 ədəd tank əleyhinə mina aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Mühəndis təminatı üzrə görülən tədbirlərdə əsas səylər ərazilərin minalardan təmizlənməsinə, eləcə də yeni təminat yollarının çəkilməsinə yönəldilir.

Qeyd olunan ərazilərdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.

# Hər qələbə Böyük Qələbənin ərəfəsi idi...





Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin irimiqyaslı təxribatının qarşısını almaq üçün Ali Baş Komandanın döyüş əmri ilə əks-hücuma keçdi. Bu əmr İkinci Qarabağ müharibəsinin mahiyyəti etibarilə Vətən müharibəsinin başlanması əmri oldu.

Xalqla ordunun birliyi, xalqın ruhən döyüşənlərin sırasında olmasında bütün cəbhə boyu döyüşlərin qələbələrlə nəticələnməsini təmin edirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində dedi. "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz Zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Azərbaycan Ordusu qətiyyətlə döyüşürdü. Qazanılan hər qələbə sonrakı döyüşlərin başlanğıcı olurdu, sonrakı döyüşlər də qələbəylə tamamlanırdı - Azərbaycan əsgəri döyüşə-döyüşə son döyüşə, Böyük Qələbəyə yaxınlaşırdı.

Rəşadətli ordumuz əks-hücuma başladığı ilk gündən uğurlu əməliyyatlar keçirdir, yaşayış məntəqələrimizi, kənd, rayon və şəhərlərimizi bir-bir azad edirdi. Məhz 27 sentyabr günü artıq Füzuli və Cəbrayıl rayonlarının bir neçə kəndi, Kəlbəcər istiqamətində isə Murovdağ zirvəsi azad olunmuşdu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin növbəti zəfər xəbəri 3-ü və 4-ü oktyabrda oldu. Həmin günlər Tərtər rayonunun Talış və Suqovuşan kəndləri uğrunda və Cəbrayıl rayonu istiqamətində ağır döyüşlər gedirdi. Düşmən bu strateji ərazilərdən çəkilmək istəmirdi. Azərbaycan Ordusu düşmənin istəyini güllələrlə çilikledi. Oktyabrın 3-də hərbi qulluqçularımız Talış və Suqovuşan kəndlərini işğaldan azad etdilər, Suqovuşanda Azərbaycan bayrağı dalğalandı... Bu möhtəşəm qələbələrdən bir gün sonra sevindirici xəbər Cəbrayıl rayonundan gəldi. Cəbrayılda da Azərbaycan Bayrağı yüksəldildi. Cəbrayılın kəndləri və şəhərin özü düşməndən azad olundu. Cəbrayılın azad olunması haqqında Ali Baş Komandanın tarixi Xudafərindən məruzə edildi. Bu qələbələr Böyük Qələbənin ərəfəsi kimi yaşanıldı...

**"Azərbaycan Ordusu"**

# Ulu Öndərin ilk dəfə prezident seçilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib



*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ilk dəfə prezident seçilməsinin 30-cu ildönümü münasibətilə əlaqədar Müdafiə Nazirliyinin tabeliyindəki müəssisə və hərbi hissələrdə silsilə tədbirlər keçirilib.*

Əvvəlcə Ulu Öndərin ölkəmizin müxtəlif yerlərindəki abidələri önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla anılıb. Ulu Öndərin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirlərdə çıxış edənlər Ulu Öndərin müasir Azərbaycan Ordusunun yaradılması və inkişafında misilsiz xidmətlərindən danışıblar. Qeyd olunub ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirilib, ölkəmizin beynəlxalq mövqeyi güclənib. Onun müdrik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sayəsində ölkəmizin durmadan inkişaf etdiyi xüsusi vurğulanıb.





Eyni zamanda, qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə respublikamızda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndərə göstərilən ehtiramın bariz nümunəsidir.

Silsilə tədbirlər çərçivəsində plana uyğun olaraq şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər nümayiş etdirilib, elmi-praktik konfranslar, "dəyirmi masa"lar və digər mədəni-kütləvi tədbirlər təşkil olunub.

# "Xəzri-2023" birgə taktiki təliminin məşqləri icra olunub



Azərbaycan və Qazaxıstanın Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən "Xəzri-2023" birgə taktiki təlimi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə təlimin planına uyğun olaraq keçirilən brifinqdə iştirakçılara təhlükəsizlik qaydaları, yerinə yetiriləcək tapşırıqlar, onların icra ardıcıllığı və digər zəruri məlumatlar verilib.

Sonra hər iki ölkənin HDQ-nin şəxsi heyəti və gəmiləri ilə müxtəlif epizodlar üzrə tapşırıqlar məşq etdirilib, həmçinin onlar arasında döyüş uzlaşması həyata keçirilib.



Qeyd edək ki, təlim məşqlərinə cəlb olunan heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

*Şah İsmayıl Xətai: "Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm - ana dilimizi, vicdanımızı, Vətənimizi" demişdi. Bu kəlamlar zaman-zaman hər bir gəncin vətənsevərlik öyüdü, nəsihəti olub. Hər bir azərbaycanlı üçün Vətən müqəddəsdir. Vətənpərvərlik tarixən milli mentalitetimizin tərkib hissəsi olub, indi də belədir.*

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində tarixi Zəfərin qazanılmasında, xalq-ordu birliyinin böyük əhəmiyyəti oldu. Xalqın orduya olan inamı və dəstəyi döyüşlərin mənəvi stimulu idi. Xalq-ordu birliyi Azərbaycan Respublikası Prezidentinin uğurlu siyasətinin, Ali Baş Komandan olaraq sərkərdəlik qüdrətinin davamı kimi ordumuza parlaq Zəfər qazandırdı.

*Ordenli igidlərimiz*

# "Atamın döyüş yolunun davamçısıyam"

Bu qələbəni bizə yaşadan igidlərin şərəfli döyüş yolu hər birimiz üçün örnəkdir. Onların Vətən sevgisi, sarsılmaz döyüş əzmi xalqımıza Böyük qələbə sevinci yaşatdı. Həmin igidlərdən biri də kapitan Faiq Əliyevdir.

Faiq 1992-ci ildə Şabran rayonunda dünyaya göz açıb. Yeniyetməliyindən torpaqlarımızın işğalda olması ilə barışmazlığı dərk etməsi ona gələcək həyatının istiqamətini təyin etmişdi. Bu fikirlər onu orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) gətirdi. Təhsil aldığı 4 il ərzində kursant Faiq Əliyev motoatıcı ixtisasını böyük həvəslə öyrəndi, təcrübəli komandirlərindən və müəllimlərindən gərəkli biliklər mənimsədi, çöl məşğələlərində gərəkli praktiki vərdişlərə yiyələndi.




Leytenant kimi hərbi xidmətə başladı...

2016-cı ilin aprelin 1-dən 2-nə keçən gecə Ermənistanın silahlı qüvvələri növbəti hərbi təxribat törətdi, ön xətt mövqelərimizi və yaşayış məntəqələrimizi intensiv artilleriya atəşinə tutdu. Bu döyüşlərdə rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vurdu. Şanlı tariximizə "Aprel döyüşləri" adı ilə qələbə səhifəsini yazdı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Aprel döyüşlərinin ildönümü ilə əlaqədar bir qrup hərbçiylə görüşdə dedi: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

2020-ci il sentyabrın 27-də mənfur ermənilərin həyata keçirmək istədiyi növbəti genişmiqyaslı təxribatdan sonra başlayan əks-hücum əməliyyatı daha bir böyük Zəfərimizlə tamamlandı.

Kapitan Faiq Əliyev həm Aprel döyüşlərinin, həm də Vətən müharibəsinin iştirakçısıdır. "Hərbçi ailəsində anadan olmuşam, vətənpərvərlik, hərbi həyata sevgi ən kiçik yaşlarımdan aşılanıb. Atam ehtiyatda olan baş gizir Fəyyaz Əliyev Silahlı Qüvvələrin veteranıdır. O, Birinci Qarabağ müharibəsində iştirak edib".

Sonda öyrəndik ki, kapitan Faiq Əliyev Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaətinə görə "Qarabağ" ordeninə və "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb...

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## Mövzu: Azərbaycan-Türkiyə qardaşlığı. Bir millət, iki dövlət

**Suallar:**

**1. Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır.**

**2. Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı.**

Türkiyə Azərbaycanın haqq işinə həmişə dəstək verən ölkələrdəndir. İstər Vətən müharibəsində, istər Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsində, istərsə də Qarabağ və Şərqi Zəngəzurda gedən quruculuq prosesində Türkiyənin dəstəyi həmişə hiss edilib. İşğala məruz qalmış ərazilərimizdəki hər iki beynəlxalq hava limanının açılışında, Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlqoyma mərasimində Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı və eləcə də müttəfiqlik bəyannaməsinin Şuşada imzalanması da bunu təsdiq edir.

### Azərbaycan-Türkiyə arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Bu əlaqələri şərtləndirən amillər sırasında ortaq kökümüzün, dilimizin, dil birliyimizin, oxşar mədəniyyətimizin və adət-ənənələrimizin olmasıdır. Əsrlər boyu bu dövlətlər həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmiş, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrikcəsinə dediyi kimi "bir millət, iki dövlət" olmuşlar. Təsadüfi deyildir ki, Türkiyə dövlətinin dahi lideri Mustafa Kamal Atatürk Azərbaycanın kədərini özlərinin kədəri, sevincini isə öz sevinci hesab etmişdir. Türk dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşlar: "Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır".

Azərbaycan Xalq Cümhuriyyətinin 28 may 1918-ci ildə müstəqilliyini elan etməsi ilə başlayan Türkiyə-Azərbaycan siyasi əlaqələri Azərbaycan dövlətinin müstəqilliyini bərpa etdikdən sonra Türkiyə dövlətinin ilk dövlət olaraq Azərbaycanın müstəqilliyini tanıması ilə bərpa olunmuşdur. İki dövlət arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulmuş, 1992-ci ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi açılmış, 1993-cü ilin yanvarında İstanbul, 2004-cü ilin aprelində isə Qars şəhərlərində Baş konsulluqları təsis edilmişdir. Eyni zamanda, Türkiyənin Bakı şəhərində səfirliyi, Naxçıvan və Gəncə şəhərlərində Baş konsulluqları fəaliyyət göstərməkdədir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə 1992-ci ildə blokada şəraitində yaşayan qədim diyarın qardaş ölkə ilə 11 kilometrlik hissəsində, Araz çayı üzərində "Ümid" körpüsü adlandırılan keçid məntəqəsini istifadəyə verməklə, iqtisadi, mədəni əlaqələrin yaradılmasını təmin etmişdi. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərmişdir. Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etmişdir.

"Bir millət, iki dövlət" məşhur deyimini söyləyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yaratdığı qardaşlıq əlaqələri bu gün də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Məhz belə misilsiz fəaliyyətin nəticəsidir ki, hazırda Azərbaycan ilə Türkiyə Avrasiya kontinentinin Cənubi Qafqaz və Qara dəniz kimi strateji əhəmiyyətli regionlarının geoiqtisadi mənzərəsinin müsbətə doğru dəyişdirilməsinə nail olmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyinin güclənməsinə də mühüm dəstək vermişlər. Belə ki, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi və Avropa ilə Asiya arasında Zəngəzur dəhlizi vasitəsilə əsas tranzit xəttini yaratmaqla, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Birgə əməkdaşlıq və təşəbbüslə inşası davam etdirilən, artıq XXI əsrin layihəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması, İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu, Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da Türkiyə-Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığın növbəti məhsuludur.

Son 31 il ərzində Azərbaycan və Türkiyə dövlətləri arasında əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş, 15 sentyabr 2010-cu ildə İstanbulda, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması və 15 iyun 2021-ci ildə Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini vermişdir. Şuşa Bəyannaməsi imzalanarkən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Qars müqaviləsini yada salaraq qeyd etmişdir: "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, Cənub Qaz Dəhlizinin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır...".

Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz, BMT başda olmaqla, bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir.

### Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın inkişafı

Müstəqilliyimizin ilk günündən etibarən Azərbaycan Respublikasının, Qarabağ başda olmaqla, işğal və ərazi bütövlüyü probleminin yaşadığını, regional təhlükəsizlik ehtiyacını diqqətə alan qardaş Türkiyə dövləti Bakının hərbi baxımdan güclənməsinə çalışmış, bunu Türkiyənin də regionda güclənməsi olaraq görmüş və mümkün dəstəyi əsirgəməmişdir. İki qardaş ölkənin ordularının əməkdaşlığı yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, eyni zamanda, bölgədə sabitlik və təhlükəsizliyin təmini, ortaq güc formalaşdırmaq yoluyla milli problemlərin həll edilməsi baxımından da mühüm əhəmiyyət kəsb etmişdir.

İki qardaş ölkə ordularının əməkdaşlığı yönümündə ilk hüquqi addım 11 avqust 1992-ci ildə imzalanan "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilənin bağlanmasıyla başlanmışdır. Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində yüzlərlə azərbaycanlı zabit təhsil alaraq Azərbaycan Ordusunun güclənməsinə öz töhfəsini vermişdir.

Azərbaycan Ordusunun zabit heyətinin ehtiyacını qarşılayan ən önəmli təhsil müəssisələrindən olan Heydər Əliyev adına Hərbi İnstitut qardaş ölkənin aktiv iştirakı və köməyi ilə NATO standartlarında təhsil verən təhsil ocağı səviyyəsinə gətirilib çatdırılmışdır. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə və digər ölkələrə göndərilir. Eyni zamanda, indiyə qədər Azərbaycan-Türkiyə müdafiə nazirlikləri arasında təmənnasız hərbi yardım, müdafiə sənayesi, təlim-tədris və maddi-texniki təminat sahələrində əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır. Hərbi sənayesi ilə qüvvətlənən qardaş ölkənin müxtəlif silah sistemlərinin Azərbaycanla birlikdə istehsalı da qardaşlıq ittifaqının müdafiə sənayesində də müştərək layihələr həyata keçirərək ordularının gücünə güc qatacağının bariz nümunəsidir.

Qərblə Şərqin qovuşduğu nəqliyyat dəhlizləri, neft-qaz boru xətləri, yollar baxımından olduqca strateji bir coğrafiyada yerləşən Azərbaycan, Avroatlantik məkanın təhlükəsizliyin təmini baxımından da önəmli olduğu üçün Azərbaycan hərbçiləri NATO-nun Sülh üçün Əməkdaşlıq proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarına daxil edilmiş və bu fəaliyyətlər də Türkiyə dövləti vasitəsilə həyata keçirilmişdir. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanmış tarixi Şuşa Bəyannaməsini iki qardaş ölkənin ittifaq müqaviləsi kimi də qəbul etmək olar. Müqavilənin müddəalarının birinə görə, ölkələrdən hər hansı birinin müstəqilliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmamazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid, yaxud təcavüz edildiyi təqdirdə Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil ediləcəkdir.

İki qardaş ölkələrin ordularının müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanların öyrənilməsi, o cümlədən yerdən və havadan zərbələr endirməklə düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarının yerinə yetirilməsi ilə bağlı zirehli texnika, artilleriya qurğuları, hərbi aviasiya, hava hücumundan müdafiə qüvvələrini də cəlb etməklə həyata keçirilən çoxsaylı birgə təlimlər də birlik və əməkdaşlığın önəmli istiqamətlərindən birini təşkil etməkdədir. Bu təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsi idi ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini azad edərək respublikamızın ərazi bütövlüyünü təmin etdi. Azərbaycan 44 günlük Vətən müharibəsində döyüşmək bacarığını, supermüasir ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssislərini, mühəndislərini, zabitlərini, elit xüsusi təyinatlı hərbçilərini nümayiş etdirdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, "bu yeni nəsil müharibə üslubudur, hansı ki, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

2023-cü il ərzində Azərbaycan və Tükiyə Silahlı Qüvvələri arasında həm Azərbaycanda, həm də Türkiyədə müxtəlif təyinatlı birgə təlimlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəminin olduğunu, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün böyük əhəmiyyəti və faydası olduğunu bildirmişdir.

Vətən müharibəsi Azərbaycan-Türkiyə əlaqələrini daha da möhkəmləndirdi. 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər paradında Azərbaycan və Türkiyə əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Azərbaycan xalqı küçələrə axışaraq böyük sevinc hissi ilə Azərbaycan və Türkiyə əsgərlərini salamladı. Bu tarixi gündə Azərbaycanın bütün şəhərləri Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı "Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam" deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərdən birinə - erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatı, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağda lokal xarakterli antiterror tədbirləri öncəsi Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışında "... Tək millət, iki dövlət" şüarı ilə hərəkət etdiyimiz Azərbaycanın ərazi bütövlüyünə dair atdığı addımları dəstəkləyirik" deməsi və Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində "... Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdırlarsa, necə ki, Nuru paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdirlərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq..." deməklə, konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunəsidir.

Bir sözlə, Azərbaycan və Türkiyə xalqlarının qardaşlığı daim möhkəmlənir, əlaqələri dayanmadan inkişaf edir və hər iki ölkə regionda təhlükəsizliyin qarantına çevrilir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanıb. Bizi birləşdirən həm tarixi köklər, həm də mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir

*Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstanın hərbi qulluqçularının iştirakı ilə "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, nəzəri və praktiki hissədən ibarət olan, üç ölkənin hərbi qulluqçularının və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin cəlb olunduğu təlimdə strateji əhəmiyyətli, eləcə də regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqlar icra ediləcək.

Oktyabrın 6-dək davam edəcək təlimdə əsas məqsəd hər üç ölkənin silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsidir.

## Medallı igidlərimiz

# "İllərlə gözlədiyimiz əmri yüksək əhval-ruhiyyə ilə icra edirdik"

*"Vətən igidləri ilə tanınar", deyiblər. Azərbaycan xalqı da həmişə vətənpərvər, igid, qorxmaz oğulları ilə tanınıb. Xalqımızın mübariz oğulları böyük məhəbbətlə sevdikləri Vətənimizi hər zaman göz bəbəkləri kimi qorumağı özlərinə borc biliblər. Əsrlərin sınağından çıxmış bu tarixi ənənəni cəsur oğullarımız bu gün də yaşadırlar.*



Üç il öncə 2020-ci ilin 27 sentyabrında erməni hərbi birləşmələrinin cəbhə boyu genişmiqyaslı təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusunun hərbi qulluqçuları cəsarətlə döyüşə atıldılar. Qəlbi Vətən eşqi ilə alışıb yanan cəsur oğullarımız qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən uğurla gələrək, xalqımıza böyük qələbə sevincini yaşatdılar. Rəşadətli ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə tarixi ədaləti bərpa etdi. Döyüş meydanında hərbi qulluqçularımız igidlik, qorxmazlıq, vətənpərvərlik nümayiş etdirdilər.

Haqq savaşında tabeçiliyində olan şəxsi heyətlə birlikdə düşmən istehkamlarının yarılmasında, minaların zərərsizləşdirilərək tarixi torpaqlarımıza doğru yol açılmasında böyük əməyi olanlardan biri də mayor Anar Baxşəliyevdir.

Baxşəliyev Anar Mübariz oğlu Naxçıvan Muxtar Respublikasında anadan olub. Hələ orta məktəb illərindən Vətənin keşiyində dayanmağı arzulayıb. Azərbaycanın hərb tarixini, sərkərdələrin həyatını, döyüş yollarını dərindən öyrənib. Tarix boyu erməni xəyanətkarlığı ilə qarşılaşan xalqımızın yaşadığı faciələri kədərli hisslərlə izləyib, qəhrəman oğulların davamçısı olacağına söz verib. Beləliklə, orta məktəbi bitirdikdən sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. Ali hərbi təhsil müəssisəsini 2011-ci ildə bitirdikdən sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində təkmilləşdirmə kursunu uğurla başa vurub. Həmin gün onun həyatının dönüş nöqtəsinə çevrilib. Leytenant hərbi rütbəsində ön xətdə yerləşən hərbi hissələrin birində xidmətə başlayıb.

"Vətənə, xalqa mənəvi xidmət etmək əsl vətənpərvərlikdir, - deyərək söhbətə başlayan zabit 44 günlük Vətən müharibəsində keçdiyi şərəfli döyüş yolundan danışdı: "Tarixə nəzər salsaq görərik ki, xalqımız Vətənini sevən, tarixi dəyərlərə bağlı insanlarla nə qədər zəngindir. Hər birimiz Vətəni anamız, müqəddəs qibləgahımız bilmişik. Tarix boyu neçə-neçə oğullar Vətən torpağının müdafiəsi üçün düşünmədən, sevə-sevə canını fəda edib. Mübarizlik, qəhrəmanlıq xalqımıza məxsus olan mənəvi xüsusiyyətlərdir. 27 sentyabr 2020-ci il tarixində də Vətən torpaqları təhlükədə idi. Düşmən təxribatının qarşısını almaq üçün Ali Baş Komandanın əmri ilə hərbi hissəmiz də əks-hücum əməliyyatına cəlb olundu. Üzərimizə məsuliyyətli tapşırıq qoyulmuşdu. Düşmənin minalar basdırdığı, müxtəlif istehkamlar qurduğu, "keçilməz" hesab etdiyi sədlər zərərsizləşdirilməli, qoşunlarımızın sürətli hərəkəti üçün yol açılmalı idi. İllərdir gözlədiyimiz əmri yüksək əhval-ruhiyyə ilə icra edirdik. Ali hərbi təhsil müəssisəsində, təlim və məşqlərdə qazandığımız bilik və bacarıqları döyüş meydanında uğurla tətbiq etdik. Gərgin döyüşdən sonra düşmənin ön xətti yarıldı. Tarixi torpaqlarımıza doğru irəlilədik. Vətən müharibəsinin iştirakçısı və qalib ordunun hərbi qulluqçusu olaraq azad olunan torpaqlarımıza ilk ayaq basanlardan biri olduğum üçün isə bu gün ikiqat qürurluyam. Döyüşlərin son günündə noyabrın 9-da yaralandım. Təxliyə olunub ilkin tibbi yardım aldıqdan sonra Bakıya hərbi hospitala göndərildim. Beş əməliyyat keçirdikdən sonra sağlamlığıma qovuşdum. Təəssüflənirəm ki, qələbə xəbərini hərbi hospitalda aldım. Ancaq qürurlanıram ki, 30 ilə yaxın işğalda qalmış doğma torpaqlarımızın azad edilməsində, xalqımıza qələbə sevincinin yaşadılmasında mənim də əməyim var".

Şərəfli döyüş yolu keçən zabit Anar Baxşəliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak etdiyinə və tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Vətən müharibəsindən sonra da hər bir hərbi qulluqçumuz kimi, mayor Anar Baxşəliyev də xidmətini böyük ruh yüksəkliyi ilə davam etdirib. Belə ki, cari ilin 19 sentyabrında Azərbaycanın Qarabağ bölgəsindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin ordumuzun mövqelərini müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutmasının, ərazilərimizin minalanmasının davam etdirilməsinin, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsinin qarşısını almaq üçün lokal xarakterli antiterror tədbirləri zamanı da qarşıya qoyulan tapşırıqlar peşəkar zabit tərəfindən uğurla icra edilib. İki övlad atası olan zabitlə təkcə xidmət yoldaşları deyil, bütün xalqımız qürur duyur. Onun timsalında tarixi ədaləti bərpa edən bütün igidlərimizə minnətdarıq. Bu haqq savaşında şəhid olanların ruhunu hər zaman ehtiramla anır, yaralananlara şəfa diləyirik.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**C.CƏFƏROVUNDUR**

# İdman

## Azərbaycanın tamblinq üzrə yığma komandası Parisdə keçirilən turnirdə qızıl medal qazanıb



Azərbaycanın tamblinq üzrə milli komandası Parisdə keçirilən "Tumbling French Cup" turnirində qızıl medal qazanıb.

Tofiq Əliyev, Adil Hacızadə və Mixail Malkin komanda hesabında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Fərdi proqramda isə M.Malkin birinci, A.Hacızadə ikinci olub.

## "Qarabağ" azarkeşlərinə "Hekken"lə oyun üçün 1800 bilet ayrılıb




UEFA Avropa Liqasının qrup mərhələsinin II turunda İsveçdə "Hekken"lə qarşılaşacaq "Qarabağ"ın səfər oyununu izləmək istəyən azarkeşlər üçün ayrılmış bilet sayı bəlli olub.

Oktyabrın 5-də "Ullevi" stadionunda baş tutacaq qarşılaşma üçün Ağdam klubunun fanatlarına 1800 bilet ayrılıb.

Biletlər oyun günü yerli vaxtla saat 19:00-dan etibarən arenanın 8-ci qapısının qarşısında satılacaq. Biletin qiyməti 22 avrodur.

Qeyd edək ki, oktyabrın 5-də keçiriləcək "Hekken" - "Qarabağ" matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

## FIDE reytinqi: Teymur Rəcəbovun mövqeyi dəyişməyib, Şəhriyar Məmmədyarov geriləyib



Beynəlxalq Şahmat Federasiyasının (FIDE) oktyabr ayı üçün reytinq cədvəli açıqlanıb.

Azərbaycan şahmatçısı Teymur Rəcəbovun mövqeyi dəyişməyib. 36 yaşlı qrossmeyster 2745 xalla 14-cü pillədə qərarlaşıb.

Şəhriyar Məmmədyarov (2734) isə 1 pillə geriləyərək, 17-ci sıraya enib. Bakıdakı Dünya Kubokunda 4-cü yeri tutan Nicat Abasov (2679) 58-ci yerə yüksəlib. Qədir Hüseynov isə reytinq cədvəlini tərk edib.

Siyahıya son Dünya Kubokunun qalibi olan norveçli Maqnus Karlsen (2839) başçılıq edir. İkinci pillədə ABŞ təmsilçi Fabiano Karuana (2786), üçüncü sırada isə çinli Din Liren (2780) yer alıb.

Qadın şahmatçılardan Günay Məmmədzadə (2441) 30-cu, Ülviyyə Fətəliyeva (2393) 56-cı, Gövhər Beydullayeva (2383) 66-cı, Gülnar Məmmədova (2346) isə 100-cü sırada qərarlaşıb.

## Azərbaycan millisinin voleybolçusu Rumıniyada gümüş medal qazanıb



Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin hücumçusu Yelizaveta Ruban Rumıniyada gümüş medal qazanıb.

Hücumçunun şərəfini qoruduğu "CSM Lugoj" klubu Rumıniya Superkuboku uğrunda matçda "CSM Volei Alba Blaj" kollektivi ilə qarşılaşıb.

Y.Rubanın çıxış etdiyi komanda rəqibinə 1:3 hesabı ilə məğlub olaraq, ikinci yerə layiq görülüb.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Hümbətli Cavidan Müqəddəs oğluna məxsus MN № 0057949 nömrəli və tibb xidməti leytenantı Pənahov Adəm Rasim oğluna məxsus MN № 0062030 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Əsədov Emil Ələsgər oğluna məxsus AD № 0006630 nömrəli və əsgər Şahmarlı Şahmar Şaiq oğluna məxsus AD № 0020817 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Oruc MUSTAFAYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 564<br>Nüsxə 4760 |